## Habil Yashar

### Allah

Bu bahar ömrümə bir sazaq düşüb,
Qış mı yaşayıram bahar mı Allah?
Ayrıldıq araya bir ocaq düşüb,
Mənmi alışıram o yar mı Allah?

Özüm öz içimdə əriyən mənəm,
Ağlayıb, sızlayıb, göynəyən mənəm,
Min yükü çiynimə götürən mənəm,
Haqmı daşıyıram nahaq mı Allah?

Səhərin dan yeri açılan deyil,
Yoluma bir işıq saçılan deyil,
Yazılan yazılıb pozulan deyil,
Ağmı yaşayıra qara mı Allah?

Elə bir yerdəyəm gəl apar mən,
Tikansız bir güləm dər qopar məni,
Haraya getsəmdə dərd tapar məni,
Dərdmi xoşlayıram vüqar mı Allah?

Həsrətin əlindən əldən düşmüşəm,
Ağızdan düşmüşəm, dildən düşmüşəm,
Deyəsən mən yerə göydən düşmüşəm,
Düzmü danışıram yalan mı Allah?